HAKİMİYYƏTİN MƏNBƏYİ XALQDIR

www.hakimiyyet.info.az



HAKİMİYYƏT

İctimai-siyasi həftəlik qəzet | № 23 (286) | 04 noyabr 2023-cü il | Qəzet 1994-cü ildən çıxır | Qiyməti 60 qəpik

ASTANADA PREZİDENT İLHAM ƏLİYEVİN TÜRKİYƏ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞÜ OLUB

Noyabrın 3-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.

ƏRDOĞAN TOKAYEVƏ TOGG HƏDİYYƏ EDİB



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə Türkiyə istehsalı olan TOGG elektromobili hədiyyə edib. Qazaxıstan Prezidenti həmkarına təşəkkür edərək onu elektromobillərin uğurlu seriya buraxılışı münasibətilə təbrik edib.

Qeyd edək ki, noyabrın 3-də Qazaxıstanın paytaxtı Astanada Türk Dövlətləri Təşkilatının (TDT) "Türk əsri" şüarı altında 10-cu yubiley sammiti keçirilib. Sammitdə həmçinin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak edib.

NAZİRLƏR KABİNETİNİN İŞ VƏ İSTİRAHƏT GÜNLƏRİ BARƏDƏ QƏRARI

Nazirlər Kabinetinin "İş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında" müvafiq qərarına əsasən, beşgünlük iş həftəsi ilə fəaliyyət göstərən təhsil müəssisələrində cari həftə son iş günü 4 noyabr, növbəti həftənin iş günləri 6, 7 noyabr, bayramdan sonra ilk iş günü isə 13 noyabrdır.

Altıgünlük iş həftəsi ilə fəaliyyət göstərən təhsil müəssisələrində cari həftə son iş günü 4 noyabr, növbəti həftənin iş günləri 6, 7 noyabr, bayramdan sonra iş günləri 10-11 noyabr tarixləri müəyyən olunub.

DGK MƏTBUAT VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR İDARƏSİNİN MƏLUMATI

Sosial şəbəkələrdə və bir sıra kütləvi informasiya vasitələrində Türkiyə Respublikası ilə sərhəddə yerləşən "Sədərək" gömrük postunda yük nəqliyyat vasitələrinin sıxlığının yaranması və sürücülərdən qeyri-qanuni vəsaitlərin tələb olunması ilə bağlı məlumatlar yayımlanıb.

Dövlət Gömrük Komitəsi bildirir ki, "Sədərək" gömrük postunda nisbi sıxlığın yaranmasına səbəb Azərbaycandan tranzit keçməklə İran İslam Respublikasından Türkiyə Respublikasına gedən yük nəqliyyat vasitələrinin sayının artmasıdır.

Qeyd edək ki, hazırda "Sədərək" gömrük postu vasitəsilə qarşı tərəfin də buraxılış qabiliyyəti nəzərə alınmaqla gündəlik 480 yük nəqliyyat vasitəsinin keçidi təmin edilir.

Sürücülərdən qeyri-qanuni vəsaitlərin yığılması ilə bağlı iddialar ümumiyyətlə həqiqətə uyğun deyil, böhtan xarakteri daşıyır.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 211-ci maddəsinə əsasən ölkə ərazisinə daxil olan nəqliyyat vasitələri parametrləri, ölkə ərazisində qalma müddətləri və qanunvericilikdə müəyyənləşdirilən digər amillər nəzərə alınmaqla yol vergilərinə cəlb olunur.

PREZİDENT İLHAM ƏLİYEV QAZAXISTANA SƏFƏRİ

Noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında keçiriləcək 10-cu yubiley Zirvə görüşündə iştirak etmək üçün Qazaxıstan Respublikasına səfər edib. Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Prezident İlham Əliyevi Qazaxıstanın Baş naziri Alixan Smailov və digər rəsmi şəxslər qarşılayıb.

PREZİDENT İLHAM ƏLİYEV ASTANADA TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK EDİB

Noyabrın 3-də Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı. Sonra birgə foto çəkdirildi. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Zirvə görüşünü açaraq qonaqları salamladı.

Dövlətimizin başçısı Zirvə görüşündə çıxış etdi.

PREZİDENT İLHAM ƏLİYEV PAKİSTAN SİLAHLI QÜVVƏLƏRİNİN QURU QOŞUNLARI KOMANDANINI QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı Asim Muniri qəbul edib. Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini bildirdi.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü dövründə Pakistan hökumətinin və xalqının ölkəmizə göstərdiyi davamlı dəstəyi yüksək qiymətləndirdi. Dövlətimizin başçısı Pakistanın Ermənistanın təcavüzünə görə bu ölkə ilə diplomatik əlaqələr qurmamasını Azərbaycana göstərilən qardaşlıq münasibətinin nümayişi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsi dövründə də Pakistanın Azərbaycana göstərdiyi siyasi dəstəyə görə minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı torpaqlarımızın işğaldan azad olunması kimi tarixi missiyanı başa çatdırdığımızı, suverenliyimizin tam bərpa olunduğunu, işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı yenidənqurma işlərinə başlanıldığını məmnunluqla bildirdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Pakistan arasında hərbi sənaye sahəsində uğurlu əməkdaşlığın olduğunu deyərək, ölkələrimizin birgə hərbi təlim keçirməsinin önəminə toxundu.

Dövlətimizin başçısı beynəlxalq səviyyədə ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələsinə toxunaraq, Azərbaycanın qardaş Pakistanı Cəmmu və Kəşmir məsələsində hər zaman dəstəklədiyini bir daha qeyd etdi.

Prezident İlham Əliyev Asim Munirin səfərinin əməkdaşlığımızın möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Asim Munir İkinci Qarabağ müharibəsində əldə olunan Qələbə və bu ilin sentyabrında həyata keçirilən antiterror tədbirlərində Azərbaycanın qazandığı uğurlar münasibətilə təbriklərini çatdırdı, bunun Pakistanda böyük sevinclə qarşılandığını qeyd etdi. Qonaq Pakistanın Azərbaycan xalqı ilə qardaşlıq əlaqələri nümayiş etdirərək, Ermənistanı bu günə kimi tanımadığını bir daha vurğuladı.

Asim Munir Cəmmu və Kəşmir məsələsində ölkəmizin dəstəyinə görə minnətdarlığını bildirdi.

XİLASKAR LİDER-MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN

Vətən müharibəsinin nəticələri, Ermənistanın Azərbaycana qarşı əsassız torpaq iddiaları ilə başlayan münaqişənin şanlı Qələbə ilə başa çatması və 28 illik işğala son qoyulması göstərdi ki, Prezident İlham Əliyevin Ali Baş Komandan kimi qətiyyəti, siyasətçi kimi iradəsi, diplomat kimi müdrikliyi və humanist davranışı ilə torpaqlarımızın işğaldan azad edilməsinə nail olmaqla həm xalqı qalib olmaq arzusuna çatdırdı, həm də minlərlə insanın həyatını xilas etdi.

2016-cı ilin Aprel döyüşlərində minimum itki verməklə düşmənə sarsıdıcı zərbələrin endirilməsi, 2000 hektardan çox ərazinin, Lələtəpə kimi strateji əhəmiyyətli yüksəkliyin azad edilməsi, 2018-ci ilin mayında cəmi bir şəhid verməklə Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi uğurlu əməliyyat sayəsində 11 min hektardan artıq ərazinin azad edilməsi, nəhayət, Tovuz döyüşlərində Ermənistan silahlı birləşmələrinin dövlət sərhədimiz istiqamətində amansız hücumlarının inamla dəf edilməsi ölkəmizdə ordu quruculuğu sahəsində aparılan uğurlu islahatların nəticəsi, Ordumuzun peşəkarlığının göstəricisidir. Ali Baş Komandanın verdiyi xüsusi tapşırıq sayəsində məhz yuxarıda sadaladığımız nailiyyətlərə imza atılıb və bunlar Vətən müharibəsində şanlı Zəfərimizi şərtləndirib.

Vətən müharibəsinin Şanlı Qələbəmizlə başa çatmasından və el-oba, yurd həsrətinə son qoyulmasından artıq bir il üç ay vaxt keçib. Bu müddətdə ilk Qələbə paradımız keçirildi. Tarixi Zəfərimizin birinci ildönümü ölkəmizdə və dünyanın hər yerində yaşayan soydaşlarımız tərəfindən fəxr və qürur hissi ilə qeyd edildi. Torpaqlarımızın Ermənistan silahlı birləşmələri tərəfindən işğalına artıq son qoyulub, düşmən darmadağın edilib. Artıq bir ildir ki, gözəl Şuşamızda dünya miqyaslı tədbirlər, festival və müsabiqələr keçirilir. Düşmən tərəfindən viran, talan edilmiş şəhər və kəndlərimizdə bərpa-quruculuq işləri uğurla, inamla davam edir. Ötən hər gün, həftə, ay vətəndaşlarımızın öz ata-baba yurdlarına qayıdışını yaxınlaşdırır.

Artıq bir ildən çoxdur ki, ərazi bütövlüyümüz bərpa olunub, haqq-ədalət öz yerini tutub, əzəli-əbədi Azərbaycan torpaqları əsl sahiblərinə qayıdıb, habelə bir milyondan çox vətəndaşımız qaçqın, məcburi köçkün kimi yaşamaqdan və tənəli ifadələr eşitməkdən xilas olub. Hamımız şəhidlərimizin xatirəsini böyük qürur hissi ilə anır, Vətən müharibəsində qazandığımız Qələbədə əməyi olan insanları hörmətlə yad edir, qədim elimizə böyük qayıdışı səbirsizliklə, sevinclə gözləyirik.

Zabil Mustafayev,
Kənd Təsərrüfatı Nazirliyi,
"Azəraqrar" Dövlət İstehsalat və Emal Birliyi,
Kəlbəcər-Laçın Regional İdarəsinin rəisi